# Dua necə olmalıdır?

Bu çalışma vərəqi sənə dualarının məzmununu və dolğunluğunu təhlil etməyə kömək edəcək.

## MƏZMUN

**Hər duada eyni sözləri deyib-durursan? Elədirsə, aşağıdakıları nəzərdən keçir:**

Yehovaya minnətdar olduğun üç şeyi yaz.

1. ______________________
2. ______________________
3. ______________________

*«Yehovaya minnətdarlığımı bildirmək bütün diqqətimi Onun mənim üçün etdiyi şeylərə cəmləməyə kömək edir. Bunun sayəsində Onu daha çox sevirəm və minnətdarlığım daha da artır» (Canet).*

Səni narahat edən üç vəziyyəti yaz.

1. ______________________
2. ______________________
3. ______________________

*«Ürəyimi Yehovaya boşaltdıqca qəlb rahatlığı tapıram və bir daha əmin oluram ki, O, əsl dostdur» (Kera).*

Çətin vəziyyətlərlə üzləşən üç insanın adını yaz.

1. ______________________
2. ______________________
3. ______________________

*«Yaxında və ya uzaqda yaşamasından asılı olmayaraq, problemlərlə üzləşən dindaşlarımız üçün dua etmək çox yaxşıdır» (Şelbi).*



**Budur, artıq duana daxil edə biləcəyin doqquz mövzun var!**

**Məsləhət:** ***«Nə barədə dua edəcəyinin siyahısını tutmaq və duadan əvvəl bu siyahıya göz gəzdirmək duanın məzmununu yaxşılaşdırmağa kömək edəcək. Zamanla mövzular çoxalacaq və düşüncələrini Yehova ilə bölüşmək sənə asan olacaq» (Siara).***



www.jw.org © 2017 Watch Tower Bible and Tract Society of Pennsylvania

# DOLĞUNLUQ

**Hansı sahədə zəifliyin var?**

## SƏMİMİYYƏT
(İbranilərə 5:7 ayəsinə bax.)

## SAY
(1 Salonikililərə 5:17 ayəsinə bax.)

## MÜDDƏT
(1 İşmuil 1:12 ayəsinə bax.)

**Dualarını dolğunlaşdırmaq üçün qarşına hansı məqsədi qoya bilərsən?**



*«Hərdən görürəm ki, dualarım bir-iki kəlmədən ibarətdir. Nələr hiss etdiyimi Yehovaya danışmaq üçün üzərimdə işləməliyəm» (Loren).*

**Məqsədim:** ______________________

______________________

______________________

______________________

______________________



*«Dostlarımızla zəngləşməyə və yazışmağa həmişə vaxt tapırıq. Amma ən gözəl ünsiyyət Yehova ilə ünsiyyətdir. Əsas üstünlüyü buna verməliyik» (Alana).*

**Məqsədim:** ______________________

______________________

______________________

______________________

______________________



*«Duanın uzun çəkməsi yaxşıdır. Nə qədər uzun dua etsək, o qədər çox şeyi Yehovaya danışacağıq (Tereza).*

**Məqsədim:** ______________________

______________________

______________________

______________________

______________________



www.jw.org © 2017 Watch Tower Bible and Tract Society of Pennsylvania

# MƏSLƏHƏTLƏR



## Ürəyindən keçən an dua et

«Bu yaxınlarda səmaya baxarkən onun gözəlliyinə heyran qaldım. Elə oradaca Yehovaya yaratdıqlarının möhtəşəmliyinə görə minnətdarlığımı bildirdim» (Mariya).



## Sakit bir yer tap

«Hərdən çöldə oturub Yehovaya dua edirəm. Yaratdıqlarına baxdıqca özümü Ona daha yaxın hiss edirəm. Həmin vaxt elə bilirəm, düz yanımdadır» (Kimberli).

**Dua edə biləcəyim sakit yerlər:**

## Müqəddəs Kitabdakı duaları oxu

«Zəbur kitabını oxumaq çox xoşuma gəlir. Başqalarının öz hisslərini Yehovaya necə ifadə etdiyini görəndə mən də onlar kimi sərbəst dua etmək istəyirəm» (Helena).

**Müqəddəs Kitabda məni ruhlandıran dualar:**





www.jw.org © 2017 Watch Tower Bible and Tract Society of Pennsylvania